# Taxıl əkini davam edir

Kənd təsərrüfatı təbiətdən asılıdır. Havalar əlverişli keçəndə təsərrüfat işləri də ahəngdar gedir. Oktyabr ayında və noyabr ayının başlanğıcında bölgəmizə aramsız yağan yağış insanların iş ovqatına müəyyən mənada mənfi təsir göstərmişdi. Xüsusilə əkinlə məşğul olan fermerlər, torpaq mülkiyyətçiləri havaların əlverişsiz keçməsi ilə üzüzə qalmışdılar. Amma son günlər əmək ritmi qaydaya düşmüşdür. Havalar indi əkiçilik üçün çox əlverişli keçir, iş öz ahəngi ilə davam etdirilir.



Hazırda payızlıq taxıl əkini sahəsində qızğın iş gedir. Fermerlər və torpaq mülkiyyətçiləri gələn ilin bol məhsulu üçün taxıl əkininə yüksək hazırlıqla başlamış və səpini optimal müddətdə başa çatdırmaq məqsədilə işin sürətini gündən-günə artırır, texnikanın fasiləsiz işləməsini təmin edirlər. Son məlumata görə rayon üzrə 8515 hektar sahəyə yüksək məhsuldar toxum səpilmişdir. Bundan 5340 hektarını arpa, 3175 hektarını buğda sahələri təşkil edir. 17080 hektara yaxın sahədə şum çıxarılmışdır. Taxıl əkininə «Gilan» MMC-nin, «Həsrət» toxumçuluq təsərrüfatlarının, Bayramkoxalı, Kürd, Qaradeyn, Zalam, Əmirvan, Yeni Dizaxlı kəndlərinin və Nic qəsəbəsinin əkinçiləri mütəşəkkil qaydada başlamış və gündəlik səpin normasını artıqlaması ilə yerinə yetirirlər. Həmin təsərrüfatlar eyni zamanda gələn il daha çox yüksək keyfiyyətli toxum və ərzaq məhsulu götürmək üçün aqrotexniki qaydalara da üstünlük verirlər. Bitkilərin normal inkişafı üçün mineral gübrələrin tətbiqi, ziyanvericilərə qarşı mübarizə işlərinin aparılması diqqət mərkəzindədir.

Əkin işlərinin fasiləsiz aparılmasında rayonda fəaliyyət göstərən «Aqrolizinq» ASC-nin mexanizatorlarının əməyi də çoxdur. Hazırda filialın əkin kampaniyasında 38 ədəddən çox müxtəlif növ kənd təsərrüfatı texnikası iştirak edir. Bu da işin sürətini və ahəngdarlığını gündən-günə artırır.

✍ **Aslan CƏLİLOV.**

# Mal-qaranın cins tərkibi yaxşılaşdırılır

Qəbələnin aqrar bölməsi çoxsahəlidir. Rayonda əkinçilik, bağçılıq və üzümçülüklə yanaşı, heyvandarlığın inkişafı



da kənd əhalisinin diqqət mərkəzindədir. Burada hazırda xeyli sayda sahibkar mal-qara, qoyun-keçi saxlamaqla məşğuldur. Rayonda heyvandarlıq məhsullarının istehsalının artırılmasında, əhalinin ət, süd məhsulları ilə təminatının ödənilməsində sahibkarlar xüsusi rol oynayır. Bu gün rayonda heyvandarlıq ən gəlirli, çox zəhmət tələb edən sahə hesab olunur.

Son illər rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində heyvandarlıq məhsullarının istehsalında nəzərəçarpacaq dərəcədə artım əldə edilir. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında mütərəqqi texnologiya olaraq süni mayalanma işinin səmərəli təşkili də böyük əhəmiyyət kəsb edir. İndi rayonun təsərrüfatlarında 6 süni mayalanma məntəqəsi fəaliyyət göstərir. Cari ilin 9 ayı ərzində 4100 baş inək və düyələrdə süni mayalanma aparılaraq nəticədə 1527 baş sağlam buzov alınmışdır ki, bu da böyük uğur sayılır. Süni mayalanma işini rayonda fəaliyyət göstərən heyvandarlıq komplekslərində, Vəndam, Nic qəsəbələrində, Mirzəbəyli və Zarağan kəndlərində heyvandarlıqla məşğul olan sahibkarlar və mülkiyyətçilər daha yaxşı təşkil edirlər.

Əldə edilmiş bütün uğurlar ümumən kənd təsərrüfatının, eləcə də heyvandarlığın inkişafına dövlət qayğısının bəhrəsidir. Keçən il avqustun 19-da Prezident cənab İlham Əliyev heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması ilə əlaqədar mühüm sərəncam imzalamışdır. Prezidentin bu sərəncamı ilə yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahibinə 100 manat məbləğində subsidiya verilməsi qərara alınmışdır. Artıq bu qərarın icrasına başlanmışdır.

*«Qəbələ».*

# Yeni fındıq bağları salınır

Bu il qəbələlilər tərəfindən fındıq bağlarında bol məhsul yetişdirilib. Rayon üzrə mövsümdə 6.400 ton fındıq məhsulu tədarük olunub. Fındıq məhsulunun istehsalı əvvəlki illə müqayisədə 100 ton artıb. istehsal olunan məhsulun böyük hissəsi fındıq emalı müəssisəsi tərəfindən alınıb, qalan hissəsi isə bazarlarda satışa çıxarılıb. Bu il bazarlarda fındığın bir kiloqramının satış qiyməti 4—5 manat arasında dəyişib. Fındıq məhsulunun istehsalında Nic qəsəbəsinin, Çuxur Qəbələ, Soltannuxa, Tola, Mirzəbəyli, Mıxlıqovaq kəndlərinin bağbanları xüsusilə fərqlənmişlər. Adı gedən qəsəbə və kəndlərin əhalisi qədim zamanlardan qiymətli məhsulun istehsalı ilə məşğuldur və eyni zamanda yeni cavan bağların salınmasına maraqlıdırlar.

Hazırda rayonda mövcud fındıq bağlarının ümumi sahəsi 5 min hektardan çoxdur. Bu bağların böyük hissəsi barverəndir.

Dövlət başçısının fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlərin icrasını təmin etmək məqsədilə hazırda rayonda yeni fındıq bağlarının



salınması istiqamətində iş aparılır. Yaxın illərdə rayon ərazisində 2000 hektara yaxın sahədə yeni fındıq bağlarının salınması nəzərdə tutulur. Artıq bu işə başlanmışdır. Eyni zamanda yeni fındıq bağları salınması üçün əkin sahələri müəyyənləşdirilir və kəndlilərin əkin kampaniyasına daha geniş cəlb edilməsi üçün tədbirlər həyata keçirilir.

*«Qəbələ».*

# Çörək elin sərvətidir

***Çörək əsrlərdən bəri firavanlıq, bolluq və bərəkət rəmzi sayılır. Həmişə süfrəyə birinci gətirilən çörək xalqımız tərəfindən elin varı, elin sərvəti və əvəzolunmaz neməti kimi qiymətləndirilmişdir.***

Bum qəsəbəsində yeni çörəkbişirmə müəssisəsi açılmışdır. Burada müasir texnologiya əsasında hazırlanan çörək məmulatı keyfiyyətinə və saxlanma müddətinə görə cox böyük üstünlüyə malikdir. Hazır məhsullar Bum qəsəbəsinin və ətraf kəndlərin ticarət obyektlərində satılır. Sakinlər çörəkxananın xidmətindən razılıq edirlər.

*"Qəbələ".*

# Hacıalılı Bələdiyyəsində

Rayonumuzun ən fəal bələdiyyələrindən biri də Hacıalılı Bələdiyyəsidir. Əməkdaşımız bələdiyyənin cari ildə gördüyü işlərlə maraqlanmışdır. Məlum olmuşdur ki, 2016-cı ilin ötən 10 ayı ərzində Hacıalılı Bələdiyyəsi kənddaxili yollara qum-çınqıl tökdürərək hamarlatmışdır. Yollarda əmələ gələn yağış gölməçələri aradan qaldırılmışdır. Kəndin mərkəzində bələdiyyənin vəsaiti hesabına xeyli abadlıq işləri görülmüşdür. Belə ki, Hacıalılı kəndində 2 ədəd, Çarxana kəndində 1 ədəd artezian quyusu təmir edilərək əhalinin istifadəsinə verilmiş, ətrafında təmizlik işləri aparılmışdır.

Ümumiyyətlə, ilin ötən 10 ayı ərzində Hacıalılı Bələdiyyəsi daxili yolların təmirinə 2665 manat, Hacıalılı kəndinin mərkəzinin abadlaşmasına 1000 manat, artezian quyularının təmirinə 600 manat pul xərcləmişdir. Bundan başqa bələdiyyə ərazisində yaşayan imkansız ailələrə 1000 manata yaxın maddi yardım edilmişdir.

*«Qəbələ».*

*Sadə peşə adamları*

# Poçtalyon

Lida Hüseynovanı Qəbələ şəhərində hamı öz işini yaxşı bilən və intizamlı poçtalyon kimi tanıyır. Azərbaycan və rus dillərini mükəmməl bilir. Uzun illərdir rayon poçt filialında poçtalyon işləyir. İşgüzar, səmimi davranışı ilə böyük hörmət qazanıb. Xidmət etdiyi ünvanlarda hamının əziz qonağıdır. Məktub və jurnal bağlamaları, qəzet və jurnalları yubatmadan sahiblərinə çatdırır.

Rayon mərkəzi xəstəxanasının, təhsil, mədəniyyət və turizm şöbələrinin kollektivləri onun çox xoşrəftar , xoşxasiyyət qadın olduğunu, çətin işinin öhdəsindən ləyaqətlə gəldiyini bildirirlər. Əsgər anaları, şəhid ailələri, Qarabağ əlilləri Lida Hüseynovadan xüsusilə razıdırlar.

*«Qəbələ».*